

# ALİMİN POEZİYA DÜNYASI


*YASİF NƏSİRLİ,*
*Əməkdar incəsənət xadimi*


**(əvvəli ötən sayımızda)**

Həmin mövqedən çıxış edən müəllif təhsil və yataqxana dostumuz, AMEA-nın müxbir üzvü, görkəmli şərqşünas filosof Zakir Məmmədovun vaxtsız vəfatına həsr etdiyi "Alim ömrü" poemasında yazır:

**Tanrı bu dünyanı qurandan bəri**
**Bu günü sabaha təkan yaradıb.**
**Uğursuz, bəhrəsiz keçən günləri**
**Əl-ayaq dalayan tikan yaradıb.**

Görkəmli tənqidçi, alim, şair, Dövlət Mükafatı laureatı, Əməkdar elm xadimi Nizaməddin Şəmsizadəyə həsr etdiyi "Ləyaqət" poemasında yazır ki:

**Bədxahlıq kök salsa ürəyimizdə**
**Tikanları bitər kürəyimizdə.**
**Ram edə bilməsək tamah selini**
**Zəhər dadı verər çörəyimiz də.**

Poemada milli ruha və poeziya ənənələrinə güclü sadiqlik hakimdir. Müəllifin ədəbi, elmi, ictimai-siyasi platformasının mötəbərliyi, misraların tutumlu fikir siqlətinə, bədii kəsərə malik olmasından soraq verir.

N.Şəmsizadənin təhsil dostları arasından çıxan daha parlaq şəxsiyyət olduğu, yalana nifrət, düzə məhəbbət bəslədiyi poeziya dili ilə belə diqqətə çatdırılır:

**Düzlük olan yerdə öndə olmusan,**
**İlləri uğurla yola salmısan.**
**Çox kəslər süd kimi alta çöküblər,**
**Sənsə qaymaq kimi üzdə qalmısan.**

Alimin qida mənbələri qəzetlər, jurnallar, kitablar, kitabxanalar, arxivlərdir, şairin isə qida mənbəyi mütaliə, mövzu mənbəyi həyatdır. O həyatdan aldıqlarını poetik duyğularının süzgəcindən keçirib çöküntüsüz əsər kimi ərsəyə gətirəndə şəffaflığına şübhə yeri qalmır. Belə poeziya nümunələri sevilir və uzun ömürlü olur. Bu məziyyət İ.Zəkiyevin yaradıcılığı üçün də xarakterikdir. Kiçik bir faktı mənalandırmaq, ona poetik don biçmək səriştəsi şeirlərində aparıcı xətlərdən birini təşkil edir. O, tənqid hədəflərindən birini belə nişan verir:

**Əyni zəngin olsa da,**
**Ağlı miskin görünür.**
**Hər il bir yedəkçinin**
**Arxasınca sürünür.**

Dörd misradan ibarət "Papaq" şeirində də fikir öz qəlibini və hədəfini doğru tapmışdır.

**Bir qeyrət timsalı olsa da papaq,**
**Ağıldır, bilikdir papaqdan qabaq.**
**İçi çürük qoza bənzəyən başa**
**Nə lazım ya ləçək ya da ki, papaq?!**

Poeziya yolu daş daşımaq qədər çətin və əzablı yoldur. Bu yolu keçmək üçün ağıl da, istedad da, səriştə də, təpər də, səbr də, dözüm də, söz üzərində işləmək məharəti də lazımdır. Aşağıdakı misralar belə bir zəhmətin nəticəsi və yuxarıdakı fikrin məntiqi davamı sayıla bilər:

**Qaməti düz olsa da,**
**Addımları əyridir.**
**Ona həyat dərsini**
**Əqidəsi öyrədir...**

İ.Zəkiyevin yaradıcılığında yaxşı insanlara minnətdarlıq hissi də özünü qabarıq şəkildə göstərir. Akademiklərdən Əbdülkərim Əlizadə, Şəfayət Mehdiyev, İmam Mustafayev, müxbir üzvlərdən Cəfər Cəfərov, Əziz Mirəhmədov, Azad Nəbiyev, professorlardan Xeyrulla Məmmədov, Vaqif Arzumanlı, Nazif Qəhrəmanlı, şair, yazıçı və naşirlərdən Məmməd Araz, Cəmil Əlibəyov, Əlfi Qasımov, Əjdər Xanbabayev və b. görkəmli simaların vəfatından sonra daxili yanğı hissinin təsirilə yazılmış şeir, poema və



İmaməddin Zəkiyev, Qəzənfər Paşayev və Yasif Nəsirli

portret-oçerklərdə kədər notları görünsə də, oxucunu yormur. Onların hər biri sağlıqlarında çox insanların əlindən tutub həyat vermişlər. Doğru deyir ki:

**Yaxşılar olmasaydı**
**Dünya yasa batardı.**
**Ömürlər yarı yaşda**
**Son həddinə çatardı.**

Ustad müəllimimiz Mir Cəlal Paşayevin "Xalq idrakının qığılcımları" adlandırdığı atalar sözü, zərbməsəl və bayatılardan faydalanmayan bir insan və qələm sahibi tapmaq çətindir. İnsanları sevincə, inama, ümidə kökləyən misralarla yanaşı, ağrılı məqamların da bayatılarda üstünlük təşkil etdiyi əsrlərin sınağından çıxmış həqiqətdir. Oyaq vicdan sahiblərinə ehtiyacın gündən-günə artdığı bir zamanda qarsımış beyinlərə və daşlaşmış ürəklərə ox kimi batan misralara ehtiyac daha çoxdur. Yalnız ümidsiz, imansız, amansız adamlar zamanın bu tələbinin fərqinə varmaz. Klassik ənənələrin layiqli davamı kimi müxtəlif mövzulu bayatılara bəzi Azərbaycan şairlərinin yaradıcılığında indi də təsadüf edilməkdədir.

Həyat həqiqətlərinin yığcam bədii lövhələrlə bayatı janrında təsviri İ.Zəkiyevin də yaradıcılığında öz təsdiqini tapmışdır. Qarabağın ağrılı səhifələrinə həsr etdiyi 200-dən çox bayatı ustalıqla poetik qəlibə salınmışdır.

Qarabağ və qarabağlılar, şəhidlər və şəhidlər, Vətən və vətənpərvərlik, Azərbaycan və azərbaycançılıq, düşmən xalqa nifrət, dost xalqlara məhəbbət duyğuları bu bayatıların ümumi qayəsini təşkil edir. Hər bayatı lakonikliyi, sadəliyi, fikir yükünün siqləti və Qarabağın əbədi sahibinə qayıdacağına inam duyğuları ilə yadda qalır. Bir neçə nümunəyə diqqət edək.

**Laçında bağlar qalıb,**
**Sahibi ağlar qalıb.**
**Ev-eşiyi talanıb,**
**Sinəsi dağlar qalıb.**

**Kəlbəcər şah sözümdür,**
**Laçın odum, közümdür.**
**Xocalı da, Şuşa da,**
**Hərəsi bir gözümdür.**

**Xocalılar mərd olub,**
**Qonşusu namərd olub.**
**Namərdliyin bəlası**
**Xalqımıza dərd olub.**

**Ağdamın dərdi mindi,**
**Qəfəsdədir o indi.**
**Tufan, boran qopsa da,**
**O, zəfərə əmindi.**
**Cəbrayıl imdad deyir,**
**Hər işini at, deyir -**
**Dərə, təpə, dağ aşıb**
**Harayıma çat, deyir.**

**Qəzəbini bir yerə**
**Çoxdan yığıb Ağdərə.**
**Bomba kimi partlasa,**
**Oda dönər dağ, dərə.**

**Yerevan batıb yasa,**
**Can atır qışdan yaza.**
**Arxasını söykəyib**
**Bir neçə binamusa.**

Bu bayatılardan göründüyü kimi oxucu qəlbini riqqətə gətirən cəhətlərdən biri forma ilə məzmun vəhdəti arasında məntiqi bağlılığın olmasıdır. Şairin bayatılarında yaxşı qəliblənmiş cinas qafiyəli nümunələr də çoxdur. Belə bayatılarda misraların daşıdığı fikir yükü bir-biri ilə elə əlaqələndirilib ki, oxuyanda nöqsan görünmür.

Alimin bayatı janrında yazılmış "Quba lövhələri" adlı bir poeması da vardır. Şəhər, qəsəbə, kənd, dağ, meşə, yol, çay, körpü və s. gəzməli, görməli yer, yurd adlarının çəkildiyi həmin poemanın həcmi 600-ə qədər bayatıdan ibarətdir. Bayatı qəlibində yazılmış poemada ildən-ilə abadlaşan, gözəlləşən Quba bölgələrinin poetik təsviri kino lenti kimi gözlərimin önündən keçib məni tarixə çevrilmiş Azərbaycan həqiqətləri ilə üz-üzə qoydu. Bir-birinin davamı kimi diqqəti çəkən bayatılar kiçik poetik lövhələr olsa da, oxucunu düşündürür, qidalandırır və axtarışlara sövq edir. Bu bayatılarda Qubanın yaşayış bölgələrinin kəsirlərinə də işarələr çoxdur. Demək olar ki, bayatılarda təqdir və tənqid məqamları eyni dərəcədə uğurlu alınmışdır. Bunu aşağıdakı bir neçə nümunədən də görmək olar:

**Uca Bərabər dağı**
**Bəzənir yaz çağı.**
**Papağın uçub gedər**
**Baxsan üzüaşağı.**

**Xaltan, Xaşı, Rəngidar,**
**Çayı geniş, yolu dar.**
**Bu acı mənzərəni**
**Hansı insan unudar?!**

**Quba - Qonaqkənd yolu**
**Əvvəl olub dərd yolu.**
**İndi həmin sərt yolu**
**Ediblər cənnət yolu.**

**Yerfiçay aşıb-daşır,**
**Vəlvələyə qarışır.**
**Elə bil ki, iki çay**
**İki dosttək barışır.**

İmaməddin Zəkiyev 60 ildir ki, müxtəlif kollec və ali məktəblərdə müəllimlik edir. Var qüvvəsi ilə yeni nəslin vətənpərvər ruhda yetişməsində öz qüvvə və bacarığını əsirgəməyir.

Vaxtı ilə tələbəsi olmuş Fazil Cəbrayılov, Salah Salahov və başqaları müəlliminin yaradıcılıq məziyyətlərindən, mənəvi atalıq, dostluq, qardaşlıq qayğılarından faydalanmış, ona məqalələr, şeirlər həsr etmişlər. F.Cəbrayılovun şeirindən bir nümunə:

**Sən də qəribəsən, ay İmaməddin,**
**Çör-çöp arasında tir axtarırsan.**
**Məclisin başında olsa da yerin,**
**Gəlib aşağıda yer axtarırsan.**

**Xislətin, həvəsin, niyyətin təmiz,**
**Sözün, hekayətin, söhbətin təmiz.**
**Qəlbində dünyanın sərvəti təmiz,**
**Kasıb komasında zər axtarırsan.**

"Yetimlik divinin əlindən qaçıb" qoca nənəsinin himayəsində boya-başa çatmış və İ.Zəkiyevdən göz dolusu qayğı görmüş Kəlbəcər qaçqını S.Salahov tələbəlik illərindən sonra "böyük qardaşım" adlandırdığı və qarşılıqlı əlaqə saxladığı müəlliminə həsr etdiyi şeirində yazmışdır:

**Başın vüqarıntək qoy uca olsun,**
**Süfrəndə çörəyin doyunca olsun.**
**Qazancın ömrünün boyunca olsun,**
**Yayılsın hər yana hörmətin, qardaş!**
**Bizi məftun etsin qeyrətin, qardaş!**

**Hər istəyin, arzun yetişsin başa,**
**Heç vaxt ayaqların dəyməsin daşa.**
**Həyat yoldaşınla ömür sür qoşa,**
**Örnək ol yenə də hər kəsə, qardaş!**

**Yaz, yarat, qələmin qoy iti olsun,**
**Həm nizə, həm qılınc, həm ütü olsun.**
**Hər sözün bir ustad öyüdü olsun,**
**Dost, tanış sözünlə öyünsün, qardaş!**
**Ürəyin bu eşqlə döyünsün, qardaş!**

İ.Zəkiyev həlim təbiətli xeyirxah insan və sözü, əməli, qəlami ilə Vətənə, xalqa bağlı düşüncə adamıdır.

Onun poeziya aləminə ilk səyahət kimi qələmə aldığım bu yazıdan sonra şeirlər və poemalar toplusunun çağına təkan verməyimlə güman edirəm ki, Azərbaycanın nəhəng kitablar aləmi daha bir kitabla zənginləşəcək və 80 yaşlı müəllifi bundan sonra da yeni-yeni əsərlər yazmağa ruhlandıracaqdır. Yolun həmişə işıqlı olsun. Yaşa, yaz, yarat!